# Pərdənin o üzü





**Düz söz – çox vaxt həm acı, həm də köntöy olur. Şirin danışığa etibar azdır. Adətən xeyirxah və aqil adamın çox danışmaqla arası olmaz – zəvzək hara, nəciblik hara? Bilgin insan heç nəyi sübut etmək cəhdində deyil; nəyisə sübuta yetirməyə çalışan kəslər pərdə arxasında adətən dayaz adamlar olur.**
**Qədim əyyamlarda elə bil ki, ağızdan çıxan sözə qənaət olunurdu. Adamlar bir-birinə məktub yerinə düyünlü iplər – yəni sözlər göndərirdi... Nola, yenə qonşu vilayətlər bir-biriylə mehriban davrana – bir qonşu o biri qonşuda xoruzların banını, itlərin hürüşünü eşidə. Eldə insanların bir-birinin evinə ayaq basmalarına ehtiyac da qalmaz...**

DAO-sindən...

# «YENĪ DRAM» GECĪKĪR...

## ...ÇOXUSU DA REJĪSSOR UCBATINDAN...

**Vaqif Əlixanlı.** Hörmətli dramaturqlar! Sizə - "Qobustan"ın müasir Azərbaycan dramaturgiyasına həsr olunmuş müzakirəsinə "xoş gəlmisiz" deyirəm.

Bəzilərimiz müasir Azərbaycan teatrından söz düşəndə ağzımızı büzüb deyirik ki, indiki teatrımız ölü vəziyyətdədir... Məncə, teatr müəyyən vaxtda güclü də ola bilər, zəifləyər də... Ancaq Teatr heç vaxt ölmür. Teatr, ümumiyyətlə nə vaxtsa doğulubsa, o yaşamalıdır. Onun şöləsi öləziyə bilər, ancaq heç vaxt sönə bilməz. Hətta ən adi özfəaliyyət dərnəyinin timsalında belə teatr yaşayır. Bu günkü söhbətimiz sözsüz ki, teatr yaranandan üzü bəri onun özülündə dayanan dramaturgiyadan getməlidir. Əlbəttə üçbucaq əsasdır. Pyes, rejissor və aktyor. Hərənin öz fikri var. Mənim şəxsi qənaətimə görə, Teatrda tamaşanın bir "ağası" var ki, - o da Rejissordur... Güclü rejissor aktyoru da yetişdirir, rəssamı da, hətta dramaturqu da. Əgər balaca-böyüklüyündən asılı olmayaraq, - teatrın balaca -böyüklüyü də nisbi məsələdir, - hər hansı teatrın rejissoru, pyesə direktorun, tamaşaçının gözüylə, yaxud teatrın direktoru əsərə rejissor gözüylə, tamaşaçı təssübü ilə baxırsa, bunu ancaq alqışlamaq gərəkdir...

Bu gün burda qələminə, zövqünə inandığım, Azərbaycan dramaturgiyasında ümid bəslənən qələm adamları yığışıb. Əli Əmirlini hamınız tanıyırsınız, pyesləri çox sıx şəkildə oynanılır, demək olar ki, bütün teatrların repertuarında rast gəlinir. Firuz Mustafa tanınmış dramaturq, filosof və Azərbaycan dramaturgiyasına fəlsəfi yük gətirən yazardır. Tədbirimizdə şair-dramaturq - Camal Yusifzadə iştirak edir. Müzakirəmizin qeyri iştirakçılarını da sizə təqdim edim: gənc dramaturq Ülviyyə Heydərova, şair, yazıçı, kinodramaturq İlqar Fəhmi, fəlsəfə doktoru, Elmlər Akademiyası İncəsənət institutunun şöbə müdiri, teatrşünas Vidadi Qafarov, sənətşünas, fəlsəfə doktoru Aynurə Mustafayeva. Onu da deyim ki, Aynurə Mustafayevanın "Qobustan" jurnalında bu yaxınlarda dramaturgiya barədə düşüncələri çap olunmuşdu. O düşüncələr polemik nəfəsiylə diqqət çəkirdi. "Yeni Dram" barədə müzakirə keçirmək ideyası da elə o yazıdan doğdu...

Nədən bizdə "yeni dramaturgiya" o qədər irəli gedə bilmir? Niyə gecikir?

**İlqar Fəhmi.** Vaqif müəllim "yeni dramın" bizdə gecikmə məsələsinə toxundu. Mən deyərdim ki, rus dramaturgiyasında məhz ictimai düşüncə tərzi "yeni dram"ı gətirdi. Biz hələ romantik, realist dövrün adamlarıyıq, əgər belə demək mümkünsə, modernist düşüncə tərzin-



dən kənardayıq. Doğrudur, hansısa realist düşüncədən kənar, modernist meyllər bu mərhələni yaxınlaşdırır. Lakin bizdəki ədəbiyyat bu meyli kütləviləşdirə bilmədi... Odur ki, gecikmə məsələsinin özü də təbiidir. Modernist ruh yaradacaq hadisələr bizdə hələ baş verməyib. İctimai həyat özü o prosesləri yaratmalıdır. Modernist ruh nə qədər təbliq olunsa da, biz hələ də əvvəlki, romantik dövrün adamlarıyıq. Ona görə də bizim tamaşaçıların hələ geniş mənada "kult" kimi qəbul elədiyi əsərlər də romantik və realist əsərlərdir. Mən deyərdim ki, heç modernizm də bizdə tam yayıla bilmədi. Yəni Avropanın düşüncə tərzi, insanların mənən çökməyi "yeni dramı" yaratdısa, bizdə hələ o cür hadisələr baş verməyib. Odur ki, biz o "yeni dalğanı" gətirib bura şamil etmək istəsək də, yəni o cür əsər yazılsa da, bunun tamaşaçısı çətin ki, olsun.

**Vaqif Əlixanlı.** Orasını əvvəldən söyləmək çətindir. Bu sahədə az-çox iş görən "Yuğ" teatrının həmişə tamaşaçısı olub, elə indi də var...

**Əli Əmirli.** Mən İlqar bəylə tam razıyam. Tamaşaçısız teatr yoxdur. Bir şeyi də nəzərə almaq lazımdır. Şübhəsiz, hər şey müqayisədə meydana çıxır. Amma müqayisə olunan tərəflərin miqyasına da fikir verək: Rusiyada yüzlərlə teatr var, o qədər də, saysız-hesabsız dramaturqlar çalışır. Geniş mənada özümüzü, Azərbaycan teatrını müqayisə etmək, eyniləşdirmək düzgün olmaz. Yəni, o yeni dramaturgiya təbii şəkildə yaranmalıdır, bunu tamaşaçı istəməlidir. Yoxsa heç bunu gənclər də yarada bilməyəcək, yaratsa da, tamaşaçı baxmayacaq. Bizdə elə əsərlər var ki, tamaşaya qoyulur, tamaşaçı onu qəbul eləmir. Tamaşa həm də istehsalatdır, o istehsala qoyduğu pulu götürməli, bilet satmalı, yəni, bunun tamaşaçısı olmalıdır. Ona görə də bizdə teatr keyfiyyətcə sıçrayış edə bilmir. Əgər biz bu gün ənənələr üzərində yaxşı pyes yazırıqsa və tamaşaçı onu qəbul edə bilirsə, bu özü böyük işdir. Bizdə çoxlu sayda şair, nasir olub, indi də yetişir. Amma dramaturq yetişə bilmir. Əgər müstəqillik dövrünün dramaturgiyasını - son iyirmi ili götürsək, üç - dörd nəfər dramaturqa rast gəlinir. Mən bir dramaturq kimi müasir ədəbiyyatı, xüsusilə dramaturgiyanı izləyirəm. Son vaxtlar gənc dramaturqlar arasında İlqar Fəhmidən başqa heç kimin pyeslərini bəyənməmişəm. Baxırsan ki, dramaturgiya ilə məşğul olan müəllif bəzən adi şeyləri belə nəzərə almır. İlqarın yazar kimi uğuru ondadır ki, o, öz yazı nöqsanlarını görür.

**Vaqif Əlixanlı.** Amerikanlarda belə bir söz var ki, dramaturq kimi yetişmək istəyirsənsə, pyes yaz, öz yazdığını oxu və öz-özünü danla ki, niyə belə pis əsər yazmısan? Bunu düzəldə-düzəldə dramaturq olacaqsan.

**Əli Əmirli.** Dramaturqların sayı o qədər azdır ki, 27 dövlət teatrı daim pyes axtarır. Ona görə də teatrları qınamalı deyil. Bu gün dramaturgiyanın vəziyyəti mürəkkəbdir, dramaturqun yetişməsinin özü mürəkkəb prosesdir. Niyə əmələ gəlmir? Çünki tələbat olmalıdır. Yeni dramaturgiyaya gəldikdə isə, mənim üçün yeni də, müasir də odur ki, əsər keyfiy-

yətli olsun. Əgər o keyfiyyətlidirsə, tamaşaçı ona baxırsa, bu artıq pyesdir. Bu gün mənimçün tənqid də maraqlı deyil. Əsəri pisləyirlər, tənqid edirlər, fərqi yoxdur, mənimçün heç maraqlı deyil. Mənim üçün tamaşaçı - əsas meyardır. Mən tamaşaçı üçün işləyirəm.

**Vidadi Qafarov.** Mən bəzi məsələlərə bir qədər fərqli mövqedən yanaşıram.

"Yeni dalğa" Azərbaycan dramaturgiyası üçün heç də gecikmiş hal deyil. Yeni dalğa dramaturgiyası bizdə 80-85-ci illərdə özünü göstərmişdi. Rəhman Əlizadənin, Kamal Aslanovun, Camal Yusifzadənin, Firuz Mustafanın və elə Əli Əmirlinin yaradıcılığında... Amma çox təəssüf ki, sizin toxunduğunuz məsələ - sovet dövrünün ideoloji basqısı, gənclərə yer verilməməsi və s. problemlər həmin dövrdə yazan gənclərin teatra ayaq açmasına, eləcə də təbliğinə imkan verməyib.

**Vaqif Əlixanlı.** Vidadi müəllim, əksinə, saydığınız dramaturqların ilk pyesləri o illərdə tamaşaya qoyulub. O vaxt Azərbaycanın bütün teatrlarında gənc dramaturqlara meydan verilmişdi. Rayon teatrları o tamaşaları Bakıya gətirirdi, Televiziyada göstərilirdi, rejissor, aktyor işi qiymətləndirilirdi. Rəhmətlik, o vaxtkı gənc dramaturq Rəhman Əlizadənin "Günah" pyesinin Azdramada tamaşası yadımdadır.

**Vidadi Qafarov.** Həmin dövrdə həqiqətən yaxşı pyeslər yazılırdı.

**Vaqif Əlixanlı.** ... və tamaşaya da qoyulurdu.

**Əli Əmirli.** Amma "Günah" tamaşaçı toplaya bilmədi.

**Vidadi Qafarov.** "Günah" əslində çox yaxşı tamaşa idi, qəbul da olunurdu. Amma, teatrın daxili çəkişmələri, buna yol vermədi: Yəni R.Əlizadənin digər əsərlərinə də eyni qayğı göstərilsəydi, o indi tanınmış dramaturq sayılardı. Sonrakı illər məcbur oldu ki, öz əsərlərini heç olmasa işlədiyi kukla teatrında qursun.

Müzakirəmizdə iştirak edən Firuz Mustafanın, Camal Yusifzadənin əsərləri də ancaq Sumqayıt, Şəki, Lənkəran teatrlarının repertuarına salınırdı. Halbuki həmin pyeslər barədə Moskvanın "Teatr" jurnalında tanınmış teatrşünaslar söz deyirdi. Ancaq, o pyesləri Bakı teatrlarına yaxın buraxmaq istəmirdilər.

**Əli Əmirli.** İş ondadır ki, o pyeslər Moskvada qəbul edilirdi, amma Azərbaycan tamaşaçısı onlara laqeyd idi.

**İlqar Fəhmi.** Yaradıcı adam özü öz yaradıcılığını yerli mühitdən çıxarıb dünya səviyyəsinə gətirməlidir. Amma, görürsən yerli mühitdə elə hadisələr baş verir ki, artıq o hadisə məsələn, Avropada 150 il bundan əvvəl baş verib. Təbii ki, sən onu təkrar eləmək istəmirsən. Amma burda da problem yaranır. Görürsən, sənin tamaşaçın hələ o mərhələyə gəlib çatmayıb. Avropada 19-cu əsrin sonu burjualaşma gedirdi: maddiyatın mənəviyyata qalib gəlməyi, bir ailənin maddiyyat üzərində parçalanmağı, cəmiyyətdə pulun yayılmağı və s. Azərbaycanda hal-hazırda həmin mərhələ gedir. Sən bir yazar olaraq düşünürsən ki, mən o düşüncə tərzini təkrarlasam, ola bilər ki, hər hansı Moskva tənqidçisi o mühiti yaxşı qəbul eləsin, amma burda heç kim onu başa düşməyəcək.

Dramaturq buranın tamaşaçısına bizim keçdiyimiz ictimai proseslərə uyğun əsər yazmaq məcburiyyətində qalır.

**Vaqif Əlixanlı.** Belədə biz özümüzü - könüllü olaraq, qapısını, pəncərəsini özümüz bağladığımız bir sənət mühitinə qapatmırıqmı?

**Əli Əmirli.** Mənimçün əsas - tamaşaçı problemidir ki, teatrdakı hər şey ona xidmət göstərməlidir.

**Firuz Mustafa.** Elə isə icazənizlə özümdən misal gətirim."Sərhədsiz dünya" adlı bir fəlsəfi traktatım var. Orda deyilir ki, fizikadakı "birləşmiş qablar" qanunu təkcə təbiətdə deyil, həm də cəmiyyətdə mövcuddur. Mədəniyyətdə sərhəd yoxdur. Fransada, İngiltərədə, yaxud dünyanın başqa ölkələrində baş verən hadisələrdən ən azından informasiya şəklində də olsa xəbərdar oluruq. Biz deyirik ki, dramaturq azdır. Bəs dramaturq nə vaxt yetişir? Şübhəsiz ki, dramaturq mütləq teatrla təmasda yetişməlidir. Mən yazılarımda da, müsahibələrimdə də deyirəm ki, dövlət özü müstəqil teatrlara qrant ayırmalıdır. Müstəqil teatrlar yaşamalıdır. Teatrların binası gözəldir. Dövlətimiz teatrlara qayğı göstərir. Amma yenisini yaratmaq lazımdır. Teatrlarımızda bir konyuktura hökm sürür. Bizim teatrlar konyukturaya daha çox bağlıdır. Əvvəllər "Təbliğ" "İlham", "Arif" teatrı kimi müstəqil teatrlar vardı. İndi "Oda" teatrı var.

**Vaqif Əlixanlı.** Səhv etmirəmsə, sizin sözünüzdən belə məlum olur ki, söhbət "Problem teatrından" gedir. "Müstəqil teatr" deyəndə bunu nəzərdə tutursuz, eləmi?

**Əli Əmirli.** Əgər teatların pulunu dövlət verirsə, o necə müstəqil teatr ola bilər ki?

**Firuz Mustafa.** Mən demək istəyirəm qrant verilsin. Köhnə sovet respublikalarından başqa hər yerdə teatrlar müstəqildir və özünü saxlaya bilir.

**Camal Yusifzadə.** Bizdə teatrın özünü saxlamağı çox mübahisəli məsələdir. Müstəqil teatr üçün, necə deyərlər, könüllü tamaşaçı yetişdirmək zaman istəyir...

**Vaqif Əlixanlı.** Bunun özülündə bu günkü söhbətimizin mövzusu - dramaturgiya durur... Sizi mövzuya qaytarmaq istəyirəm.

**Əli Əmirli.** Bacarığı varsa, teatr elə layihə

qoysun ki, o qrantı alsın. Gürcü teatrları elə qrantla yaşayır ki... Müstəqil teatr yaşamaq üçün o teatr elə bir səviyyədə olmalıdır ki, bileti satılmalı, özünü saxlamalıdır. Bizim reallıqda teatrın özünü müstəqil şəkildə saxlamağı həqiqətən çox çətindir.

**Vidadi Qafarov.** Mən deməzdim. Məsələn "Oda" teatrı öz gücünə yaşayır. baxın, Gürcüstan teatrlarına nəzər salın. Müstəqil teatrlardır.

**Əli Əmirli.** "Oda"teatrında bir gözəl tamaşaya baxdım. Çox gözəl aktyor oyunu gördüm. Amma zalda beşcə nəfər tamaşaçı vardı.

**Vidadi Qafarov.** Nolar, sabahı on nəfər, o biri gün on beş nəfər olar. Teatr öz tamaşaçısını yetişdirməlidir.

**Əli Əmirli.** Gəlın Gürcüstanla müqayisə eləməyək. Təkcə Tbilisidə 40-a yaxın teatr var.

**Vidadi Qafarov.** Amma Gürcüstanın əhalisi Azərbaycandan üç dəfə azdır. Elə ərazisi də. Litvanın da eləcə... Amma oralarda teatral təbəqə çoxdan yetişib. Biz də buna çalışmalıyıq.

**Vaqif Əlixanlı.** Hər halda qayıdaq dramaturgiyanın üstünə. Hörmətli dramaturqlar, gəlin mövzunu yaddan çıxarmayaq.

**Firuz Mustafa.** Teatr estetikiasından söhbət gedirsə, orda mütləq müxtəliflik, rəngarənglik olmalıdır. O cümlədən dramaturgiyada. Elə əsər var ki, kamera teatrında oynanılıb, amma iri səhnədəkindən böyük şöhrət qazanıb. Görürsən bəziləri də deyir ki, mən öz əsərimi estetik təfəkkürü olan tamaşaçı üçün yazıram. Yəni müəllif tamaşaçını öz səviyyəsinə qaldırmaq, ya da əksinə endirmək istəyir.

Dramaturgiya yeganə janrlardan biridir ki, bunun bir qanadı ədəbiyyatın üstündədir, bir qanadı incəsənətin.

**Əli Əmirli.** Başqa cür mümkün də deyil. Teatr dramaturgiyasız neynəyə bilər ki?.. Məncə inkişaf üçün heç olmasa on nəfər müntəzəm yazan dramaturqumuz olmalıdır. Kənddən gələn adam şeir, nəsr yaza bilər. Ancaq pyes yazmaq üçün şəhər mühiti lazımdır. Dramaturq teatrı görməlidir.

**Vidadi Qafarov.** Sözsüz ki, dramaturqun inkişafında teatrın rolu böyükdür. Əli müəllim, sizin bur dramaturq kimi tanınmağınızda Gənclər teatrının, xüsusilə rejissor Hüseynağa Atakişiyevin böyük rolu olub. İlqar Fəhminin Kamera teatrında "Sonuncu qatar" tamaşası oynanıldı. Həm bədii baxımdan, həm sosial mesaj baxımından layiqli tamaşaydı.

**Aynurə Mustafayeva.** Vaqif müəllim söhbətin başlanğıcında dedi ki, tamaşanın müəllifi rejissordur və ilk olaraq ondan çox şey asılıdır. Mənə elə gəlir ki, hamı desə də, dramaturq gərək deməsin ki, tamaşa ancaq rejissordan asılıdır. Sözsüz çox tamaşalarımızda rejissorun mövqeyi üstündür.

**Vaqif Əlixanlı.** Mən bədii şuranın, müdiriyyətin, hətta Nazirliyin belə rolunu zərrəcə azaltmadan onu bir daha nəzərə çatdırmaq istərdim ki, hər hansı pyesi rejissor bəyənmirsə, o pyesin arxasında rejissor dayanmırsa, əsərdən və yaxud tamaşadan söhbət gedə bilməz. Çünki yerdə qalan hər şey rejissordan asılıdır. Söhbət fərli dramaturgiyadan və fərli rejissordan gedir...

**Aynurə Mustafayeva.** Mənə elə gəlir ki, dramaturq bir müəllif olaraq öz əsərinin mənafeyi naminə rejissorla mübarizə aparmalıdır.

**Vaqif Əlixanlı.** Yəqin ki, "cəngü-çidala" çıxmaq mənasında yox...

**Aynurə Mustafayeva.** Əlbəttə yox. Çünki bizim rejissorlar çox vaxt səhnədə bədii materialı öz bildiyi kimi yozur, müəllif bir kənarda qalır. Bəzən relissor işi mən deyərdim ki, bədii materialın bel sütununu sındırır.

**Vaqif Əlixanlı.** Rejissor da ixtiyar sahibidir ki, öz yozumunu qabağa çəksin. Burda rejissorla dramaturqun sözü bir olsun. Birinin sözü o birinin "boğazından keçməlidir". Başqa yol yoxdur.

**Firuz Mustafa.** Aynurə xanım yaxşı bir məsələyə toxundu. Mən bu məsələyə başqa bucaqdan baxıram. Mən rəhmətlik Hüseynağa Atakişiyevlə işləmişəm. Heç zaman da rejissorun işinə müdaxilə etməmişəm. Çexovun əsəri tamaşaya qoyulur. Məgər o dirilib yenidən rejissorla işləməlidir və yaxud Şekspir? Əli müəllimin Tacikistanda əsəri tamaşaya qoyulub, onun heç xəbəri də olmayıb quruluşdan...

**Əli Əmirli.** Dramaturq əsəri teatra verəndən sonra daramaturqla əsər arasına çox adam girir. Və bu da təbiidir. Teatr - kollektiv sənətdir. Tacikistanda, iki teatrda mənim əsərim tamaşaya qoyulmuşdu. Orda məndən soruşdular ki, siz Azərbaycandasınız, rejissorsa burdadır. Bu sizi narahat etmir ki? Mən cavab verdim ki, dramaturqun əslində tamaşanın məşqində iştirak etməsi düzgün deyil. Həm də bu məsələ rejissorun "avtoriteti" ndən asılıdır.

Rejissorun işiylə hardasa barışmaya bilərsən, amma sonda hesablaşmalısan. Onsuz da tamaşa əsər müəllifinin adı ilə gedir.

**Vaqif Əlixanlı.** Şübhəsiz, hər rejissorun öz işləmə prinsipi var. Amma bu gün söhbət rejissora qədərki prosesdən gedir. Niyə təzə dramaturqlar yetişmir?

**İlqar Fəhmi.** Ancaq dram əsərini yazdıqdan sonra gərək oturub gözləyəsən, görək nə vaxt səhnəyə qoyacaqlar. Odur ki, mən bəzi pyeslərimi povestə çevirməyə başlamışam. Bilirəm ki, səhnəyə çıxaran deyillər. Bir nüans var. Bu yaxınlarda teatrların birindən mənə bir sosial sifariş gəldi. Dramaturji priyom eləmədən, sırf publisist, bir qədər də primitiv formada,

televiziya şousuna bənzər priyom seçdim. Açıq publisist, sosial mövzu idi və zal ağzına kimi dolu idi. Tələbələr alqışlarla qarşıladılar. Çünki səhnədə qoyulan problemlər tələbələri tərpədən problemlər idi. Amma o mənim üçün bədii əsər deyildi.

**Vaqif Əlixanlı.** Əslində "yeni dram" dediyimizin bir qolu elə odur. Məncə "yeni dram"da məzmunla bərabər forma da mühüm rol oynayır.

**İlqar Fəhmi.** Bəzən elə əsər yazırsan ki, çox gözəl bədii tapıntılar olur, amma görürsən ki, tamaşaçıya lazım olmur.

**Əli Əmirli.** Əgər yazılan əsər bədii cəhətdən keyfiyyətlidirsə, tamaşaçı onu gec-tez qiymətləndirəcək. Yaxşı əsər mütləq öz qiymətini alır. Mən əsəri yazandan sonra bilirəm ki, bu əsər 5-6 dəfədən artıq oynana bilməz və yaxud əksinə, uğur qazanar. Amma tərsinə də olur. Proqnoz vermək çox çətindir ki, tamaşaçı nəyi qəbul edəcək.

Biz əvvəl öz tamaşaçımızı razı salmalıyıq. Daxildə uğur qazanmırıqsa, başqa yerlərdə də uğur qazana bilmərik.

**İlqar Fəhmi.** Elə olduqda da özümüz - özümüzü tənqid edirik ki, ölkədən kənara çıxa bilmirik.

**Vaqif Əlixanlı.** Burda müəyyən paradokslar üzə çıxır. Bir tərəfdən "Bu şəhərdə" yaxud "Parni iz Baku" fenomeni. Yaxın vaxtların söhbətidir - Novosibirskdə Vaqnerin "Tangeyzer" operası oynanıldı. Rejissor işinə görə direktoru, baş rejissoru işdən çıxardılar. Rejissoru müdafiə edənlər də vardı, əleyhdarları da. Amma, bütün nöqsanları ilə bərabər, həmin tamaşa şəhərin teatral havasına bir təzəlik gətirdi, teatral təxəyyülü genəltmiş oldu. Bu saat Rusiyanın əyalət teatrları istər mövzu sarıdan, istər quruluş baxımdan çox irəlidədir. Moskva teatrlarını hər sarıdan konservativ sayırlar... Dramın və eləcə dramaturqun yetişməyi bir ayın, bir ilin söhbəti deyil.

**Camal Yusifzadə.** Bəli, həqiqətən də dramaturgiya gec formalaşan janrdır. Poeziyadan da, nəsrdən də tamamilə fərqlidir və mən deyərdim ki, qat-qat çətindir. Bizim bu sahədə potensial imkanlarımız son dərəcə zəifdir. Bizim müəlliflərə qlobal mənada, ayrı-ayrılıqda baxanda görürsən ki, heç birimiz buna hazır deyilik, söhbəti gedən "yeni dram"da böyük gücümüz yoxdur. Dramaturgiya böyük həyat təcrübəsi istəyən, dramaturji konflikt yaratmağı bacaran kəsləri tələb edir. Mən o vaxt altı dramaturgiya festivalında iştirak etmişəm, üçündə qalib olmuşam. Moskvada, festifalda mənə dedilər ki, sizin əsərinizin adı maraqlıdır: "Vicdanın sıfır variantı". Sizə 3 dəqiqə vaxt veriləcək, bu adı izah eləyin. Elədim də - seminarda dedim ki, limon ağacı, onun meyvəsi sıfır dərəcəyə dözmür, partlayır. Insanın vicdanı da elə limon ağacı kimidir. Müəyyən dərəcəyə qədər dözür, sonra isə dözmür, ölür. Mənim pyes qəhrəmanımın da psixolojisi budur ki, belə sosial mühitdə o yaşaya bilməz. O, ölməlidir. Bunun potensiyal imkanı bundan atrıq deyil. Mənim o vaxtkı personajım "Sosialist Əməyi Qəhrəmanı" adı almaq istəyən bir qəhrəmandır, eyni zamanda, vicdanlı adamdır. O, öz vicdanının başına fırlanmağa başlayır. Bu ideya onları tutdu və dedilər ki, gəl festivalın açılışını sən elə. Elədim də. Çıxış edəndə baxdım ki, teatrşünas Fyodorova aşağıdan mənə baş barmağını göstərir ki, əladır. Sonra həmin əsər tərcümə edildi və hətta qərara alındı ki, mənim pyesim az qala Sovetin bütün teatrlarında oynanılmalıdır. Həmin əsəri biz Şəki teatrına gətirdik. Buna o vaxtkı raykom katibi icazə vermədi. Moskva işə qarışaraq dedi ki, axı siz kimi-kimdən qoruyursunuz, bu əsəri Moskva - biz sifariş vermişik... Nə isə... Açığını deyim ki, indinin özündə də biz belə şeylərə hazır deyilik. İstər teatrlarımız, istərsə tamaşaçımız. Və o cümlədən dramaturgiyamız... Tamaşa bir qırağa, heç orda-burda dünyada yaranan müasir dramaturgiyadan belə xəbərimiz yoxdur... Yaxşı olardı ki, vaxtaşırı bir yerə yığışıb, yeni pyesləri müzakirə eləyək. Ya ayrıca toplu halında çap olunsun.

**Vaqif Əlixanlı.** Rusyada iki-üç yerdə Dram yaradıcılıq emalatxanası var. Xüsusulə Yekaterinburqdakı Kolyadanın emalatxanası məşhurdur. Gənc müəlliflər əsərlərini ora təqdim edirlər. Bəyənilən pyeslər teatrlara göndərilir. Yəni gənc dramaturqun yaxşı pyesi "yetim malı" kimi ortada qalmır, mütləq oynanılır. Sonrası da ki, Yazıçılar Birliyinin dramaturgiya bölməsi var. Hər hansı pyesi hər zaman müzakirə etməyə hazırıq.

**Ülviyyə Heydərova.** Siz yaradıcılıq emalatxanalarından söhbət açdınız. 2013-cü ildə Teatr Xadimləri İttifaqında M.F.Axundzadə dərsləri keçilirdi. Orda Firuz Mustafa, Əli Əmirli, Natiq Rəsulzadə, Azərpaşa Nemətov, Cənnət xanım və b. dərs keçirdilər. Həqiqətən mən və başqa gənc dramaturq yoldaşlarım ordan çox şey öyrəndik, teatr mühitinə bir qədər də yaxınlaşdıq. Dərslərin sonunda Teatr Xadimləri İttifaqında İsmayıl İmanovun "Lift" əsəri səhnəyə qoyuldu. Gənc dramaturqlara teatrla ünsiyyət mütləq lazımdır.

**Əli Əmirli.** Şübhəsiz ki, nə dərnək, nə də teatr pyes yazmağı öyrətmir. Siz özünüz, güclü mütaliə etməlisiz, mümkün qədər tamaşalara baxmalısız. Dramaturgiyanın da əlifbası məncə mütaliədən başlayır.

**Vidadi Qafarov.** Hər şeydən əvvəl - istedaddan...

**Əli Əmirli.** Amma, pis olmaz bir bilək ki, tamaşaçı bizdən nə istəyir. O, pul verib bilet alır, biz onun zövqü ilə hesablaşmalıyıq. Məsləhət görərdim ki, məsələn gənc dramaturqlar "Oda" teatrı üçün yazsınlar. O teatr nisbətən kiçik əsərləri tamaşaya qoyur.

**Vidadi Qafarov.** Sözsüz ki, pyes necə deyərlər, anadan tamaşa üçün doğulur. Pyes teatr üçündür. 70-ci illərdə Rüfət Əhmədzadə, Salam Qədirzadə, Məhərrəm Əlizadə oynanılırdı. Bu gün onlar oynanılmır.

**Vaqif Əlixanlı.** Allah onlara rəhmət eləsin, adını çəkdiyiniz müəlliflər sırf tamaşaçı, özü də konkret olaraq Musiqili Komediya teatrı üçün yazırdı. Bu gün tamaşaçı üçün yazılmayan əsərlər oynanılmır. Belə hesab edirəm ki, əsər yalnız tamaşaçı üçün yazılmalı deyil. Forma və məzmununa görə xırda da olsa, bir "fırtına" yaradan əsər sənət tarixində qalmalıdır.

**Əli Əmirli.** Siz mənə elə müasir yaxşı bir əsər göstərin ki, tamaşaya qoyulmayıb. Teatrı yaşadan yaxşı əsərlərdir. Tamaşaçı üçün nəzərdə tutulan, kassa üçün qoyulan əsərlərdir. Elə bir gənc dramaturq göstərə bilərsizmi ki, teatrın nəzərindən kənarda qalsın?

**Camal Yusifzadə.** İstər yaşlı, istər gənc dramaturq bilməlidir ki, onun yazdığı pyes səhnədə qurulacaq, ona diqqət göstəriləcək, kiməsə, nəyəsə xətirsiz... İstər yaşlının, istər cavan dramaturqun qayğıya ehtiyacı var...

**Aynurə Mustafayeva.** Müasir dramaturqlar kimlərdir? Keçən il gənc dramaturqlar arasında "Anamın kitabı" adlı pyes müsabiqəsi keçirildi. Həmin ədəbi müsabiqədə mən də münsif idim. On əsər təqdim edilmişdi və heç biri münsifləri qane eləmədi. Gənc dramaturqların çoxu səhnə bir qırağa qalsın, heç dramın texnikasını bilmirdi. Dramı nəsrin bir variantı kimi təsəvvür edənlər belə vardı. Onunla tam razıyam ki, dram əsəri yazmaq həm də istedadla bağlıdır.



**Vidadi Qafarov.** İctimai şərait də gərəkdir. Teatr - cəmiyyətin mikro modelidir.

**Əli Əmirli.** Yenə deyirəm, yaxşı pyes heç vaxt kənarda qalmır. Ola bilsin ki, sizin əsərinizi bu teatr bəyənmədi, başqa teatrlara üz tutun, lap lazım gəlsə, başqa ölkə teatrlarına da göndərmək olar.

**Vidadi Qafarov.** "Yeni dram"ın yaranmasında, inkişafında teatr özü təşəbbüskar olmalı, maraq göstərməli, dramaturqa kömək etməlidir. Bizim teatrların repertuarında ortabab əsərlər onsuz da kifayət qədərdir. İstərdim ki, rejissorlar gənc dramaturgiyaya münasibətdə təşəbbüskar olsun, onlarda yeni əsər yazmağa həvəs yaratsınlar. Yazılan əsər oynanılmayanda, müəllifdə də ruh düşkünlüyü yaranır. Səhnə və tamaşaçı dramaturqu irəli aparan əsas amildir.

**İlqar Fəhmi.** Əvvəllər deyirdilər ki, ssenarist yoxdur. Müəyyən vaxt keçdi, sosial sifariş verildi, çoxlu ssenari yazıldı. İndi baxırsan, hər serialın bir ssenaristi var. Teatrla bağlı belə bir sifariş hələki yoxdur.

**Əli Əmirli.** Gənclərə yer verilməlidir - sözsüz. Ancaq əsər dəyərli olmalıdır. Ədəbiyyatda, dramaturgiyada qoca-cavan söhbəti yoxdur. Vacib olan keyfiyyətdir. Kitab başqadır. Teatrda böyük bir kollektiv çalışır. Ona görə də məsuliyyət böyükdür. Həm də, dramaturgiyaya gələn adam teatrı həqiqi mənada sevməlidir. O sevgi yoxdursa, danışmağa dəyməz.

**Vaqif Əlixanlı.** Mənə elə gəlir ki, müzakirəmiz çox qızğın keçdi. Yenə də o fikirdəyəm ki, tamaşada hər şey rejissordan asılıdır. Pyesi sevən, əsl dramaturgiyaya qiymət verən peşəkar rejissorlarımız çox azdır. Və yenə də o fikirdə qalıram ki, gənc rejissorlara da, dramaturqlara da mütləq qayğı lazımdır, bu işdə ögey-doğmalıq yaramaz. Heç olmasa kiçik səhnələri hələlik gənc dramaturqların ixtiyarına verməyin vaxtı çatıbdır. Əgər "yeni dram" yaradan o cavan dramaturqun bacarığı varsa o, kiçik səhnədən mütləq özünü göstərəcək.

Müzakirədə iştirak etdiyinizə görə hər birinizə təşəkkürlər, günümüzün "yeni dramını" yaratmaqda sizə uğurlar...

*hazırladı:* **Narıngül**